Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Bilməcədi bildiyimiz bu dünya

**Məmməd Aslanın 80 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Bilməcədi bildiyimiz bu dünya:** M.Aslanın 80 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 36 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

İllər boyu, bir mətbuat işçisi kimi, ömürlərə boylanmışam; yeri gəldikcə ancaq işıqlı əməlləri, ancaq ölümsüz xatirələri qələmə almışam. İnsanların qəlbincə, ruhunca olanları yazılarıma qəhrəman seçəndə həmişə oxucu razılığı ilə qarşılaşmışam.

Nə yazmışamsa ancaq və ancaq sevdiklərim və sevilənlər haqqında yazmışam. İndi onların xoş sədasını eşitdikcə haçansa bu yazılar üçün çəkdiyim zəhmətimlə öyünür, özümü də onlarla bir cərgədə işdə-əməkdə hiss edirəm... Yazı qəhrəmanlarımın bəziləri də dünyalarını dəyişmiş, indi öz mənəvi ömürlərini yaşayırlar. Belələrinin hörmətlə anılmasında yazılarımın ömrünü görürəm.

Bu yolu seçdim ki, yanam, tutuşam,
Alovlar içində qovrulan quşam.
Ömrü söz uğrunda girov qoymuşam,
Başqa sənətim yox, ayrı işim yox...
Tanıtsa, bir misram tanıdar məni,
Ayrı sənətim yox, arayışım yox!..
Ayrı ürəyim var, ayrı başım yox.

Təvazökarlıqla deyilmiş bu sözlərin müəllifi, əslində yüzlərlə şeiri, minlərlə misrası ilə tanınmış söz cəngavəri Məmməd Aslandır.

Bütün fəaliyyəti, bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan Məmməd Aslanın keçdiyi həyat yolunu, yaradıcılığını oxuculara çatdırmaq məqsədilə və eyni zamanda 80 illik yubileyi münasibətilə yazılmış bu vəsait iki bölmədən ibarətdir. I bölmə  Məmməd Aslanın həyat və yaradıcılığından bəhs edilir. II bölmədə Məmməd Aslanın yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Bölmə I
## Həyat və yardıcılığı

Elə söz sənətkarları olur ki, onların haqqında söz deməyə çətinlik çəkirsən. Əlahəzrət sözün bütün imkanlarından bolabol istifadə etməyi bacaran mükəmməl dil bilicisi, folklordan mayalanmış istedadlı şairimiz Məmməd Aslan da belələrindəndir.

Məmməd Aslan 1939-cu il dekabrın 24-də Kəlbəcər rayonunun Laçın kəndində ziyalı ailəsində dünyaya göz açıb. Əfsanəvi bir ucalıqda yer alan bu kənd Kilsəli kəndi ilə üz-üzə, göz-gözə idi. Hər səhər günəş bu kəndə əzəmətli Laçın qayasının başı üstündən doğardı.

Ailədə doqquz oğlan uşağı dünyaya gəlsə də, yalnız balaca Məmməd həyatın dolanbaclı yollarından keçə bilmiş, ata-ananın ilk oğul sevincinə səbəb olmuşdur.

Atası klassik və el ədəbiyyatı nümunələrini dərindən bilmiş, şeirlər yazmışdır. Bütün bunlar kiçik yaşlı Məmmədə müsbət təsir göstərmiş, onda şeirə, sənətə tükənməz həvəs oyatmışdır. Şair özü uşaq vaxtı bədahətən dilinə gətirdiyi ilk misraları xatırlayır:

Allah, allah, ucasan!
Kimsə bilməz necəsən!

II Dünya müharibəsindən sonrakı illərdə atası vəfat etmiş, anası Xədicə xanım övladlarını Məmmədi və Əzizəni də götürüb, ərinin qohumlarının yanına Bərdənin Qəhrəmanlı kəndinə pənah aparmışdır.

M. Aslanın uşaqlıq illəri o qədər də fərəhli keçməmişdir. Ehtiyac içində yaşayan ailəni dolandırmaq üçün o, kənd camaatının quzularını otarmalı olmuşdur. Lakin hərfləri

öyrənmiş, müstəqil şəkildə kitab oxumağa başlamışdır. Bunu eşidən kənd məktəbinin direktoru onu məktəbə cəlb etmiş, yaşca böyük olduğuna görə birinci sinif şagirdləri arasında sıxıldığını görüb, onu birbaşa ikinci sinifə qoymuşdur.

Uşaqlıq illərindən bədahətən söz demək bacarığına malik olan M. Aslanın sonrakı həyat fəaliyyəti belədir: Kəlbəcər şəhər məktəbində orta məktəbi bitirdikdən sonra, 1957-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki ADPU) daxil olmuş, 1962-ci ildə müəllimlik etmiş, orada nəşr olunan çoxtirajlı "Yenilik" qəzeti redaksiyasında məsul katib vəzifəsində çalışmışdır. 1970-ci ilin sonlarında Bakıya köçmüş, burada "Ulduz", "Azərbaycan təbiəti" jurnallarında, "Azərbaycan gəncləri" və "Ədəbiyyat və incəsənət" qəzəti redaksiyalarında fəaliyyət göstərmişdir. Müxtəlif vaxtlarda "Yazıçı" nəşriyyatında və "Günəş" jurnalında çalışmışdır.

Onun haqqında yalnız xoş sözlərlə danışırlar. Onunla bağlı hamının yalnız xoş xatirəsi var. Bütün həyatı ədəbiyyatla, poeziya ilə bağlı olan bu insanın bircə qarışqanı əzə bilməyəcək qədər zərif ürəyinin olduğunu deyirlər. "Təbiətə, insanlara qarşı həssaslıqla, xeyirxahlıqla çırpınan bir qəlb sahibi yalnız bu qədər həssas və xeyirxah ola bilərdi"-söyləyirlər.

Məmməd Aslanın poeziyası gözəllikdən yoğrulmuşdu. Təbiətin gözəlliklərindən-dağların əzəmətindən, sərin sulu bulaqların saflığından, yamyaşıl meşələrdən, güllü çəmənlərdən rəng almışdı. Sonra bu şeirlər insanların qəlbinə axmışdı.

Sözünün əvvəli də, axırı da Kəlbəcər idi Məmməd Aslanın. "Heç yuxumdan çıxmır, gözlərimin önündən getmir" deyirdi... Kəlbəcər mənim üçün bir özgə dünya, bir özgə aləm, bir özgə həsrətdir. Kəlbəcər təkcə sərvəti ilə, təbiəti ilə deyil, insanı ilə

də gözlərimin önündədir. Kəlbəcər mənim üçün abır-həya, ismət örnəyi kimi qalıb”...

Məmməd Aslanın şeirlərində dağ çayının çılğınlığı, “dodağı süd qoxulu” pöhrələrin həyat eşqi, “fikri qəti, sözü kəsə” babalarımızın, “kəlməsi ipək” nənələrimizin isməti, “hər biri bir qurd əvəzi” igidlərimiz, xanım-xatın qızlarımız tərənnüm olunur.

Şair doğma təbiətə insanın gözü ilə baxmaqdan daha çox insana təbiətin gözü ilə baxmağa çalışır. Bəlkə də ona görə bizim öz doğma boyaları daha yaxşı görür, seçir, ayırır. M. Aslan Azərbaycan torpağını əsl övlad istəyi ilə vəsf edir. Bu torpağın unudulmaz keçmişi, zəhmət ətirli bu günü, işıqlı gələcəyi şairin qəlbini titrədir. Şirin, hərarətli ifadələrdən insani duyğular doğulur.

Vətən torpağı adamı çəkir deyirlər. Şair bu hikməti misralara çevirir, Vətən hissini və məfhumunu özünə xas bir tərzdə tərənnüm edir.

Kövrələn biz, “Vətən!”-deyə ötən biz,
Vətən-mənəm, Vətən sənsən, Vətən-biz.
Vətənsizlər necə dözür vətənsiz?!
Tənha ağac çökər düzdə, Şəkərim.

M. Aslanın şeirlərində folklor improvizasiyası duyulur. Şair yeni söz deməkdə, təzə-tər obrazlarda danışmaqda əziyyət çəkmir; poetik deyimlər sanki öz-özünə yaranır, ilham çeşməsinin gözü qurumur:

Bulaq qaynar, gözü bilər!
Ocaq yanar, közü bilər!
Ürək gedib, özü bilər:
Daha Məmməd nahaq gedib.

M. Aslanın əsərlərində Azərbaycan dili öz poetik silqəti ilə üzə gülür. Folklor deyim tərzinin doğurduğu ovqat ana laylası kimi həzin, kövrək olur. M. Aslan üslubunun şirinliyi, doğmalığı həm də dilimizin səxavətinə güvənməsi, sirrinə-sehrinə bələd olması ilə bağlıdır.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

Məmməd Aslan Azərbaycan uşaq ədəbiyyatının inkişafına təkan verən qələm sahiblərindən biridir. Yaradıcılıq yollarında heç vaxt arxayınlaşmayan, öz şirin üslubu, rəvan dili ilə uşaqların mənəvi dünyasını fəth edən M. Aslanın bu il 80 yaşı tamam olur. Elə bu münasibətlə Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Aslanın yubileyi ilə bağlı bir çox silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin keçirilməsində məqsədimiz oxucuları gözəl şeir və həm də maraqlı nəsr əsərləri ilə sevindirən Məmməd Aslanın zəngin ədəbi irsi ilə yaxından tanış etmək və sevdirməkdən ibarətdir. Belə tədbirlərdən kitab sərgilərini, kitab müzakirələrini, oxucu konfranslarını, şeir müsabiqələrini, nağıl saatlarını, xatirə və ədəbi-bədii gecələri misal göstərə bilərik. F.Köçərli adına Resbublika Uşaq Kitabxanası olaraq Məmməd Aslanın yubileyi ilə bağlı tədbirlər planı hazırlamışıq. Plana əsasən ilk növbədə kitab sərgisinin keçirilməsi məqsədəuyğundur. Kitab sərgisi müxtəlif adlar altında təşkil oluna bilər. Məsələn: “Bilməcədi bildiyimiz bu dünya”, “Ömrün hanası toxunmaz daha”, “Qürbətdən dikilib gör hara dağlar”, “Laçın yuvasından pərvazlanan şair” və s. Sərgidə Məmməd Aslanın kitabları ilə yanaşı, dövri mətbuatda nəşr olunan qəzət

və jurnal materialları, haqqında nəşr olunmuş bukletlər nümayiş oluna bilər. Sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1. Başlıq: "Laçın yuvasından pərvazlanan şair";
2. Kitablarının nümayişi;
3. Dövri mətbuatda nəşr olunmuş materialların kartotekası;
4. Yubileylə bağlı nəşr olunmuş bukletlərin nümayişi;
5. Görkəmli şəxsiyyətlər Məmməd Aslan haqqında;
6. Şeir parçası:

   Səpib göyərdərəm, sözü,  kəlməni,
   Ayrı qulluğum yox, ayrı işim yox.
   Tanıtsa bir misra tanıdar məni,
   Ayrı sənədim yox, arayışım yox.

# Kitab sərgisi
























## Görkəmli şəxsiyyətlər Məmməd Aslan haqqında

M. Aslan millətin və dövlətin dəyər verdiyi söz sənətkarı, ədəbi şəxsiyyət idi. Respublikanın Əməkdar mədəniyyət işçisi fəxri adına, “Şöhrət” ordeninə layiq görülmüşdü. Prezident təqaüdçüsü idi. Bütün bunlardan öncə o, böyük vətəndaş, böyük türkçü idi. O, ölməz söz saxlancımızda bu ruhu qoyub getdi. Məzarın nurla dolsun, əziz qardaşımız...

**Seyran Səxavət,**
*yazıçı, şair*

Məmməd Aslan Azərbaycanın gözəl şairlərindən biri idi – təmiz, saf: “Dilimiz uğrunda da həmişə mübarizə aparan möhtəşəm kəlbəcərli balası idi. Məmməd Aslan ədəbiyyatımızda elə Kəlbəcər boyda yer tuturdu.

Azərbaycanın digər bölgələri ilə müqayisədə Kəlbəcər ədəbi mühiti daha zəngindir. Aşıq Şəmşir də o torpaqda yetişib. Məmməd Aslan da o şairlərdən biri olub. Qoşma, gəraylı, heca vəzni onun poetik dünyasında tamamilə yeni səslənib. O, təbiəti gözəl duyan şairlərdən biri idi.

**Vaqif Yusifli,**
*Əməkdar mədəniyyət işçisi*

Məmməd Aslan xalq yaradıcılığı, folklor üstə köklənmiş koloritli şairlərdən biri idi. Heç şübhəsiz, onun həyatdan getməsi həmin zənginliyi özü ilə aparması, bu rəngarəngliyin ədəbiyyatımızda azalması deməkdir. Doğrudan da Məmməd Aslanın həyatdan köçməsi Kəlbəcərin ikinci dəfə itirilməsinə bərabərdir. Böyük əksəriyyət də onu Kəlbəcərlə eyniləşdirirdi. Çünki o, Kəlbəcərin və ümumən Vətənin təbiətindən yazırdı.

Vətənin gözəllikləri onun qoşma və gəraylılarında öz əksini tapmışdı.

**Elçin Hüseynbəyli,**
*Əməkdar incəsənət xadimi*

Hansı sözü, hansı kəlməni tapıb yan-yana düzə bilim ki, sənə, sənin bənzərsiz şəxsiyyətinə, dağ bulaqları kimi tər-təmiz poeziyana, həyat eşqinə, amalına, yaşamaq-yaratmaq ruhuna, həyatı fəlsəfənə işıq sala bilsin, yaraşsın...

**Ramiz Məmmədzadə,**
*professor*

Məmməd kədərin mərd, sevincin böyük olduğunu anlayan və bunu bu şəkildə də ifadə eləməyi bacaran şairdi. Daha doğrusu, kədərin, sevincin yerini bilən, ona görə də dərdə-kədərə sığınan adam. Sevinc aparar, dərd qaytarar...

**Mövlud Süleymanlı,**
*Xalq yazıçısı*

Sirrimiz, sözümüz, söhbətimiz bir olub. Məmməd Aslan bəlkə də ömrünün 30 ildən çoxunu Dədə Şəmkirlə təmasda olub. Dəfələrlə bir yerdə olmuşuq. Həmişə bizə gələrdi. Bu barədə çox danışardım, amma indi özümü yaxşı hiss etmirəm. Məmməd el-obadan getdi, Məmməd Aslan bizdən getdi. M. Aslan ən böyük dilçi idi. Dilimizin inkişafında böyük bir itki oldu. Məmməd xalq üçün yaşadı, xalq üçün də öldü.

**Qəmbər Şəmşiroğlu,**
*şair*

M. Aslan bizim poeziyamızın heç kimə bənzəməyən parlaq bir imzası idi. Şairin özünə məxsus publisistikası indi də öz

aktuallığını qoruyub saxlayır. O böyük şairimiz, təbiətdən yazan, Allahdan yazan, uşaqlardan yazan şairimiz bu gün Allaha qovuşur. Bu qovuşma anına kimi də Aslan uşaq təmizliyini, uşaq səmimiyyətini qoruyub saxlaya bilən müdrik şəxsiyyətlərdən biri idi.

**Vaqif Bəhmənli,**
*şair*

Məmməd Aslan yaradıcılığını oxuculara tanıtmaq və şair qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də şeir müsabiqəsidir. Tədbiri təşkil edən kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Yaxşı şeir demək bacarığı, yaxşı intonasiyası olan oxucular kitabxanaçı tərəfindən seçilir və onlara şeirlər təqdim olunur. Oxucular Məmməd Aslanın bir çox şeirlərini əzbərləyib müsabiqədə iştirak etmək üçün çalışırlar. Beləliklə, Məmməd Aslan yaradıcılığının işığına toplaşan münsiflər tədbiri açıq elan edirlər. Kitabxanaçı tədbirə gələn qonaqları şairin yaradıcılığı ilə tanış edəndən sonra oxucular səhnəyə dəvət olunur. Məmməd Aslanın "Şəhriyarnamə" şeirini söyləyirlər.

**"Yaxşılığı əlimizdən aldılar,**
**Yaxşı bizi yaman günə saldılar!.."**
**Şəhriyar**

**I Oxucu:**

Şəhriyarım, nərildədin qəflətən,
Heyrətləndi o üz-bu üz: bu Vətən.
Doğmalaşdın çölümüzdən evətən,
Bir də gördük hamımıza ürəksən,
Ürəklərə lazım olan gərəksən!

Elə axdın, elə coşub çağladın,
Doğma dilə göyqurşağı bağladın,
Xəyallarda aranladın, dağladın,
Dilimizin qüdrətinə şükr etdik,
Hər misranı ayə kimi zikr etdik.

Şəhriyarım, bal dilimin şəhdisən,
Boz səhrama leysan yağar "şeh" desən!
Ovqatıma bahar gülər "meh" desən!
Elə kövrək, elə çevik, pərgərsən,
Müxtəsəri, zər sözümə zərgərsən!

Hardan aldın bu ilahi sözləri?!
Şəhriyarım, pis öyrətdin bizləri!
Sevəmmədik qum üstündə izləri,
Qayalarda izimiz var əbədi,
Füzulimiz uca sözün mabədi?

Fars dilində nə yazmısan, fars bilir,
Qədirbilən bir kəlməni fərz bilir.
Sənin dərya ilhamını ərz bilir.
"Heydərbaba"n haqdan gələn səs idi,
Bundan başqa yazmasan da bəs idi!

Sənin dilin abır-həya dilidi!
Duruluğu xaliqindən ilədi.
Barış üçün başdan-başa pilədi,
Savaş günü dəbilqədi, qalxandı,
Tufan gördü-dərya kimi çalxandı.
Öz dilində yazmasaydın, nəyidin?!
Nə bilərdik: nəymiş sözün, öyüdün?!
Öz dilində dil açdıqca böyüdün,

Altmışında bir dağ kimi doğuldun,
Heydərbaba böyüklükdə dağ oldun!

Qalxıb durdun Savalanın başında,
Şairlərin əli qaldı qaşında.
Arzu, dilək səcdə qıldı qarşında!
Bir tərəfdən qoşun çəkdi paxıl da,
Qarıldadı qarğalar da, cuğul da.

"Dalğaları" marıtladı düşüklər,
Pələng üçün tələ qurdu pişiklər,
Qana qaçdı bu ətbaşlar, şişiklər
Nə ar-həya gözlədilər, nə vicdan,
Danos üstə danos yağdı bir ucdan.

**II Oxucu:**

Şəhriyarım, hardan tapdıq bu xıltı?1
Xılt püskürdü, neçə zirvəm yıxıldı...
Bu paxıllıq bir amansız ox oldu:
Dəymədiyi yer qalmadı yurdumda,
Gur dənizlər yox oldu bir udumda.

Beş-on qabil millət varsa, biri biz!
Şahlıq istər beşimizdən birimiz.
Bundan törər böhtanımız, şərimiz.
Mərtəbələr qovğasında aşındıq,
Yoxsa bizlər topdağıtmaz qoşunduq.

Şəhriyarım, yanıb çökdün bu dərdə,
Can qayğısı, can qəmini ödər də,

Karvan keçib son mənzilə yetər də,
Bir mənzilə varammadı arzumuz,
Ömrümüzü qurammadı arzumuz.

Zərrə qədər şübhə yoxdu heç məndə:
Bizik bizə dost olan da, düşmən də.
Elə qüdrət olaydı ki, kaş məndə
Gücümüzü yönəldəydim bir yönə,
Bizimkilər bəlkə birlik öyrənə...

*Tədbirin sonunda münsiflər heyəti I, II, III yerlər üzrə oxucuları mükafatlandırır.*

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında M. Aslanın 80 illik yubileyi ilə bağlı keçiriləcək tədbirlərdən biri də “Vətən gözdür, biz kirpik gözümüzün keşiyini çəkirik! adlı kitab müzakirəsidir.

Kitab müzakirəsini keçirməkdə məqsədimiz şairin yaradıcılığının oxucular arasında geniş təbliğindən ibarətdir. Elə bu baxımdan da, ilk olaraq şairin kitablarına baxış keçirilir, daha sonra qonaqlar tədbirdə yer alırlar. “Ürəyimin bağbanıyam” adlı tədbirə şair və yazıçılarla yanaşı, ədəbiyyat müəllimləri, məktəb şagirdləri və bir də kitab, şeir sevənlər dəvət olunur. Kitabxanaçı tədbiri açıq elan edir.

Əziz kitabsevərlər, şeir sevərlər! Bu gün biz sizinlə Məmməd Aslan yaradıcılığının işığına toplaşmışıq. Müzakirəsinə toplaşdığımız kitab 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən “Avrasiya Press” nəşriyyatı tərəfindən çap olunmuş Məmməd Aslanın “Seçilmiş Əsərlər” adlı kitabıdır. Bu kitab “Məmməd Aslan. Ömrü söz uğrunda girov qoymuşam” (Bakı, Azərnəşr, 1973) nəşri əsasında təkrar nəşrə

hazırlanmışdır. Kitabın redaktoru Tofiq Qaraqayadır. Kitaba ön sözü yazan isə Mövlud Süleymanlıdır.

"1939-cu ildə dünyanın gözəllik səltənəti Kəlbəcərin Laçın kəndində dünyaya göz açmışam. Həyatın qəribə dolanbacları, ömrün girinti-çıxıntıları elə ilk gündən məni sınaqlara çəkib. Doqquz qardaşdan qalan mənəm. Bu elə çıxmasın ki, bu bədbəxtlər heç olmazsa beş gün yaşayıb sonra bizə əlvida deyiblər. Bu mənada, anam Xədicə Məhər qızının çəkdiklərini gözlülər olsun, görməsin.

Məni dünyaya bağlamaq üçün əvvəlcədən valideynlərim xalq inamlarını köməyə çağırmışlar. Bərdədəki tarixi binanın içində ipək saplarla şərti yüyrüyümü qurmuşlar: "Ay bu səltənətin sahibi, balamızı sənə tapşırırıq". Bəlkə yurd sevgim elə "bu tapşırma"dan doğulub. Mən tarixi bir qalaya həmişə baba gözüylə baxmışam, ordan düşən bir kərpici ömrümün düşən kərpici sanmışam. Abidəsiz xalqlar, millətlər dünyamıza hardansa gəlmiş "qonaqlardır". Milləti millət eliyən onun keçmişidir. Keçmiş dediyimiz şey boş-boşuna keçib getmiş, tarix deyil, xalqın öz varlığı uğrunda qovğaları, ölüm-dirim vuruşları onun mənəvi abidələridir. Amma bu maddi abidələr olmadan o mənəvi abidələri qoyub saxladığın "yer" də olmur axı.

Yüyrük "bağından" sonra ikinci bağ ayırıblar. Sərt metaldan kəsilmiş bir nalı götürüb düşüblər dağın əl-ətəyinə. Hansı qaya qarşılarına çıxdısa, nalı çalıblar, yoxlayıblar, axır ki, bir qayaya pərçimlənib: "Balamızın ömrünü ömrünə caladıq, ay dağ. Xata-bala üstündən uzaq olsun!"

Özlüklərində bunları yetəri saymayıblar. Əzrayili aldatmağa yollar arayıblar. Mənim yaşamam xatirinə ölümün özünü öldürmək istəyiblər.

Mənim dünyaya gəlişim ailəmizdə bir matəmlə qarşılanıb. Ömrün sonundakı ölüm acısını bəri başa çəkiblər. Tərəzinin bir gözünə məni qoyublar, bir gözünə də təzəcə doğulmuş bir quzunu. Mənə ömrünü ödənc verən bu quzuya istəkli bir ölüyə göstəriləcək heç bir ehtiramı əsirgəməyiblər. Böyük dəbdəbəylə, göz yaşları ilə dəfn ediblər: "Ay torpaq, payını verdik, payımıza dəymə!" Sonra da üçüm, yeddim, qırxım...

Bir belə əzab-əziyyətdən sonra dirilik qapılarını açan mən təkcə öz ömrümü yaşasam, o qurbanlar qarşısında bu, çox az olardı. Mənim nakam gedən qardaşlarımın da ömrünü mən yaşayıram. Valideynlərimin öldürməsi şəri öldürüb xeyri yaşatmaq qovğaları idi. Bu ölüm-qalım tərəzisinin gözləri bütün ömrüm boyunca mənim yolumu yönəldən qaibanə səslərdir. Şeirimin xeyir xamırından yoğrulması, halal şeirə canatmalarım, görünür, dünyaya o düyün nöqtəsindən başlayıb..."

Bəli, bu söylənilənlər müəllifin özü haqqında dediklərindəndir...

Məmməd Aslan ömrünün hətta şeirdən də ucalarda duran məqamları çoxdu.

"Məmməd Aslan necə var eləcədi. Yalan bilməz, güzəştə getməz, xüsusən tərbiyə və əxlaq məsələlərində köhnə kişilər kimi işində vasvası, yəni dəqiq, təbiətə vurğun… Suyu içməkdən, çiçəyi qoxlamaqdan, çörəyi yeməkdən çox-çox ucalarda tutan və ən nəhayət, dərdə sığınan.

Hardan belə bunca dərd,
Haqq döndərib çək, Məmməd.
Sevinc dönük, kədər mərd,
Sığınmışam mərdə mən.

Məmməd Aslan kədərin mərd, sevincin dönük olduğunu anlayan və bunu bu şəkildə də ifadə eləməyi bacaran şairdi. Daha doğrusu, kədərin, sevincin yerini bilən, ona görə də dərdə-kədərə sığınan adam. Sevinc aparar, dərd qaytarar…Haqqa yalnız dərddən keçib tapınmaq olar.

Bəli, Məmməd elə bu xüsusiyyətləriylə həmişə təbiətin bir parçası kimi göz qabağında olub.

Tanınmiş şair Məmməd Aslanın bu kitabı onun ömür yoluna, yaradıcılığına bir növ güzgü tutur, qədim torpağımızın, keşməkeşli dünyamızın zərif ovqatını özündə əks etdirir.

Kitabda nəşr olunan şeirlərdən birini sizlər üçün nümunə veririk:

“Yurd itirən bay olmaz”
İçim yanar həsrətdən,
Bağrımda köz Kəlbəcər.
Gördüyü fəlakətdən
Ağlar göz-göz Kəlbəcər.

Xəyanətlə vurulan,
Öz odunda qovrulan,
Al qanımda qıvrılan
Dərdi dəniz Kəlbəcər.

Ağ saraylar viranə,
Yüz il təslim bir ana...
Məlhəm qoymaz yarana,
Dünya bumbuz, Kəlbəcər.

Məndə sevinc arama,
Dünya saxta, qurama...
Qan fışqıran yarama
Səpilən duz Kəlbəcər.

Dağ çökdürən cəbrimsən,
Can çəkişən səbrimsən,
Qazılmamış qəbrimsən,
Dərdimdə üz, Kəlbəcər...

Uşaq poeziyasının mahir bilicisi, şair Məmməd Aslanın 80 illik yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının nağıl otağında "Nağıl saatı" keçirilir.

Kitabxananın əməkdaşı "Ərincək pişik", "Qorxaq Qurbağa", "Dələ" s. adlı şeirləri səhnələşdirib kiçik yaşlı uşaqlara təqdim edir. Nağıl bitdikdən sonra uşaqlar cizgi filmi seyr edirlər.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də söhbətdir. Bu tədbir uşaqların ən çox sevdiyi tədbirlərdən biridir. "Uşaqların yaxın dostu" adlı tədbiri kitabxanaçı açıq elan edir: Əziz uşaqlar! Yəqin ki, bir zamanlar efirlərdə yer alan "Əkil-Bəkil" verlişinin aparıcısı Məmməd Aslanı yaxşı tanıyırsınız. Onun şeirlərini həvəslə, məhəbbətlə oxuyursunuz. Bu şeirlərdə Azərbaycan torpağının şəhdi-şirəsi, xalqımızın nəfəsi, şifahi ədəbiyyatımızın, el nəğmələrinin duzu, ətri var. "Şuxluca", "Bir qom bənövşə", "Quzunu harda sularsan?" kimi əsərlər xalqımızın şeiri kimi şirin, ifadəli, şən və oynaqdır. "Böyürtkən böyrü tikan", "Dağdağan-dağda qan", Çəpiş-lər-çəp işlər" şeirlərindəki sözlərin mənaları yaxşı açılıb. Şairin bu cür mənalı, maraqlı şeirləri çoxdur.

Əziz uşaqlar, Azərbaycan folklorunun ən mahir bilicisi Məmməd Aslan uzun illər "Əkil-Bəkil" verlişində sizə çox şey öyrədib. "Tapmacalar", "Gülməcələr", "Təkərləmələr", "Hər bağçadan, bir gül, hər çəməndən bir çiçək", "Sözünü söylə alana-qulağında qalana" kimi bölmələr bizim dilimizlə, torpağımızla, nəğmələrimizlə, ağız ədəbiyyatımızla sıx bağlıdır.

Uşaqlar, Məmməd Aslanın sizlər üçün yazdığı kitablardan biri də “Səhəri kim açır” adlı kitabıdır. Bu kitabdakı şeirlərin ən müsbət cəhəti müəllifin təzə mövzuları təzə nəfəslə sizlərə çatdırmasıdır. Zirinc, zoğal, alacəhrə, zirə, çətənə, sırğagülü, çınqıl, bulaq və s. haqqında şair aydın təsəvvür yarada bilir. Çünki bu şeirlər təbii, canlı və həyatidir. Onun “Dağları gəzib gəlmişəm” silsilə şeirləri, poemaları və nağılları da böyük məhəbbətin məhsulu kimi qiymətlidir.

Uşaqlar, göründüyü kimi Məmməd Aslan sizləri çox sevirdi. Tanıdığı, gördüyü uşaqların hamısı haqqında yazırdı. Təbriz, Nənəş, Şəlalə, Toğrul və başqa uşaqlar haqqında həvəslə qələmə aldığı şeirlər bunlara misaldır.

Məmməd Aslanın 1972-ci ildə “Böyürtkən-böyrü tikan” adlı kitabı çıxanda şair onu ikinci sinifdə oxuyan Süsən adlı bir qızcığaza bağışladı. Və kitabın ilk səhifəsində bu misraları yazdı:

Süsəndi ha, Süsəndi,
Beş almasa, küsəndi...

Bəli, əziz uşaqlar Süsən indi böyüyüb, böyük qızlardan olub, amma şairin ona bağışladığı kitabı itirməyib göz bəbəyi kimi qoruyub saxlayıb.

Uşaqlar ümid edirik ki, Məmməd Aslanın Süsən kimi oxucuları indi də çoxdur. Şairin yazdığı şeirləri, tapmacaları, yanıltmacları əzbər bilir, yaddaşlarına əbədi həkk edirlər. Onun sizlər üçün qələmə aldığı kitablar bilirik ki, sizin də stolüstü kitablarınızdır.

Oxucular səhnəyə daxil olur: (Ərincək pişik, Dələ, Qorxaq Qurbağa, Tərsin biri şeirlərini söyləyirlər).

Yarpaqlara toxundu:
Sürüşkəndir, qaçandır.

Pişik elə bildi ki,
Hər yarpaq bir siçandır.

Uzandı göy çəməndə,
Torpaq necə sərindi!
Dingildədi siçanlar,
Cumuxmadı, ərindi.

**(Ərincək pişik)**

Ay dələ, dələ!
Oyanma hələ:
Yorğana bürün,
Başını bələ.
İşləmə yazı,
Gözlə payızı:
Yuvana daşı
Havayı qozu.

**(Dələ)**

Məni görcək qurbağa,
Qaçıb girdi batdağa,
Batdağa çöp uzatdım,
Qorxub çıxdı qırağa.

**(Qorxaq Qurbağa)**

"A" deyirəm,
"A" deyir,
"Be" deyirəm,
"Be" deyir,
"Ye" deyirəm,

“Ye” deyir.
Bunun tərsliyinə bax:
Təkrar eliyir ancaq.
Nə desəm dönə-dönə,
Qaytarıb deyir mənə.
Guya tutuquşudu,
Tutuquşu-zad deyil,
Bizim dağın daşıdı.
**(Tərsin biri)**

Əziz oxucular, Məmməd Aslanın uşaqlar üçün yazdığı tapmaca-şeirləri sizlərə nümunə üçün təqdim edirik.

Bu necə pambıqdı ki...
Pambıq gəldi bazara,
Qoymağa yer yoxdu ki!
Nə alan var, nə satan,
Bu necə pambıqdı ki!
Bir istədim: əyirim,
Sıxdım, suyu çıxdı ki!..
**(Bu necə pambıqdı ki...)**

Bir kürk gəlib ərinmədən,
Torpağa qonub görünmədən.
Nə isinər, nə dincələr
Bu kürkü torpaq bürünmədən.
**(Sehirli kürk)**

Qəndə bənzər dadı yox,
Hey uçar, qanadı yox.
Rəngi ağ, adı qara.

Ağ bildirən adı yox.
**(Qar qara deyil ki)**

Kəsik başdı,
Aşmı? Aşdı!
Çox soyuqdu,
Dadı yoxdu.
**(Bir qazan aş)**

**Tapmacalar:**

Bir şalım var: saçaqları süngüdür,
Bu saçaqlar sökülməyə gün güdür.

Mənim adım: iki heca,
Yol gedirəm gündüz-gecə,
Yorulmuram bircə yol da,
Gah cibdəyəm, gah da qolda,
Gah dirəkdə, gah divarda,
Yol gedirəm-görsən harda...
**(Saat)**

Xırdaca quşlar
Bağlarda işlər,
Əlinə qonsa,
Əlini dişlər.
Çəməndən yığar,
Elə bağışlar.
**(Arı)**

Tapın deyim bir bilməcə:
Şəkil çəkər gündüz, gecə.
Bircə qırıq yana çəkil,

Tez silinib gedər şəkil.
**(Güzgü)**

Sapı incə, ağzı kürək,
Süfrə üstdə olsun gərək.
Dolu gedər, boş gələr ki,
İşi bizə xoş gələr ki!..
**(Qaşıq)**

Böyürtkən böyrü tikan
Böyürtkən böyürtkəndi,
Niyə böyrü tikandı?!
Tikansız olsa əgər
Quşlar dönüb dənləyər.
Nübar qalmaz bir dənə,
Nə babaya, nə sənə

Yupyumuru daş idi,
Ağ daşa yoldaş idi,
Bir qəribə iş oldu,
Daş çevrilib quş oldu!
**(Yumurta)**

Quş qanadlı çəhrəm var,
Axşamacan çırıldar.
Amma heç nə əyirməz,
Əbəs yerə salar səs.
**(Alaçöhrə)**

**Çəpişlər çəp işlər**
Hey dırmanır
Söyüdlərə çəpişlər.
Bu çəpişlər
Niyə görür çəp işlər?
Yarpaqları qırpa-qırpa hardadı,
Elə gərək
Çəpiş dada hər dadı?!

**Nənəm xalça toxuyur**
Bu, hana ağacıdı,
Bu, əriş-arğacıdı.
O gördüyün kirkitdi,
İlmələri bərkitdi.
O da gonbul həvədi,
Dişi sanki dəvədi.
Necə də hazır durub,
Gurup-gurub, gup-gupup...
İlmə çalır barmaqlar,
Gözələnir yumaqlar.
Bax, toxunan xalçadı,
Gülü qonça-qonçadı.
Əlvan ipdən gör nələr,
Toxuyurlar nənələr.

**İpək paltar**
Bel sarı kəs, ay baba!
Bel nəyinə gərəkdi?
Bağda quyu qazıram,
Bəlkə bir çəkil əkdim.

Neyləyirsən çəkili?
Qoy çəkil budaqlasın!
Neyləyirsən budağı?
Qoy budaq yarpaqlasın!
Neyləyirsən yarpağı?
İpəkqurdu saxlaram,
Yemlərəm, yarpaqlaram.
Yaxşı bəsləsəm əgər,
Qurd mənə ipək verər
Geyərəm ipək paltar,
Gün dəydikcə parıldar.

**Alma ağacı**
Bir ağac çiçəklədi,
Babam dedi:
Almadı.

Üzə güldü budaqlar,
Vaxtsız çiçək salmadı.

Əzizlədik,
Gözlədik,
Heç kəs onu yolmadı.

Yetişdi meyvələri,
Payladı bir-bir bizə.
Bıy, özünə qalmadı!

**Bir qom bənövşə**
Yamanca soyuq idi,
Odunumuz yox idi.
Dovşanımı nalladım,
Çırpı üçün yolladım.

Dovşan qaçdı meşəyə,
Rast gəldi bənövşəyə.
Bənövşə ləçək idi,
Hər güldən göyçək idi.
Ləçəklərli ətirli,
Üstü kol-kos çətirli.
Dovşan onu qoxladı,
Yavaş-yavaş yuxladı.
Haçan qalxdı yuxudan:
Gecə düşüb, ay aman!

Görkəmli şair Məmməd Aslanın 80 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ədəbi-bədii gecənin keçirilməsi də nəzərdə tutulmuşdur. Beləki, bu tədbirə kitabxanaçı iki ay qabaqcadan hazırlaşmalıdır. Əvvəlcə tədbirin ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə isə şairin əsərlərindən, poemalarından nümunələr səsləndirilir. Tədbirdə iştirak edən qonqlar Məmməd Aslan haqqında ürək sözlərini, xatirələrini danışdıqdan sonra söz musiqiçilərə verilir. “Ömrün yarı yaşında” adlı tədbirin ssenarisini sizlər üçün nümunə veririk. Səhnədən Məmməd Aslanın  portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir. Aparıcılar səhnəyə daxıl olur:

**I Aparıcı:**

Bu da 70 yaşım, bu da qış yaşım,
Üstümə qar yağıb ağarmış yaşım...
Mənimlə doğulub, amma nə fayda,
Mənə yar deyilmiş...əğyarmış yaşım.

Məmməd Aslan uşaq poeziyasına 70-ci illərdə gəlmişdir. Yaradıcılığa başlayan şair uşaqlar üçün yazmağa üstünlük vermişdir. Onun ilk addımları çox səmərəli və bəhrəli olmuşdur. Qısa müddətdə uşaqlar üçün "Dağ ürəyi" (1970), "Böyürtkən-böyrü tikan" (1972), "Səhəri kim açır" 91975), "Dəvələr niyə göyşüyür" (1980), "Durnalar lələk salır" şeir toplularını çap etdirmişdir. O, "Göyərçin" "Azərbaycan pioneri", "Pioner", "Ulduz", "Azərbaycan gəncləri" kimi uşaq və gənclər mətbuatında, eləcə də respublikanın dövri mətbuatında ardıcıl çıxış edir, şeir, nəğmə, nağıl, poema və hekayələrini çap etdirmişdir. "Uşaq dünyası" adı ilə təqdim etdiyi hekayələri isə daha səmimi hisslərlə yazmışdır. "Ata işdən qayıdanda", "Usta Qıy-qıy", "İlkinin anası", "Acgöz", "Uşaqların söhbətləri", "Sarıdaş kəndinin uşaqları" hekayələrini qələmə almışdır. Məmməd Aslan həm şair, həm nasir kimi tanınmışdır. Məmməd Aslan Azərbaycan şifahi uşaq poeziyasına çox tez-tez diqqət yetirir, xalq arasında bu gün unudulmaqda olan, tək-tək misraları qalan poetik irsi sözün əsl mənasında bərpa etməyə, eldən itəni elə qaytarmağa can atır.

Məməd Aslanın "Quzunu harda sularsan?", "Biz ovçuyuq", "Bir qom bənövşə", "Ditdili mindim çay keçdim", "Tənha qurbağa" və digər şeirlərində də şairin xidməti köhnə nəğmələrə təzə ruh verməkdən ibarət olmuşdur. Bu qəbildən olan şeirlərində şairin poetik dili yığcam, kövrək və şirəlidir; mükalimələr uşaq marağınca uşaq danışıq dilində qurulduğundan yaddaqalımlıdır. Məmməd Aslanın uşaq

şeirlərində folklor qaynaqlarından bəhrələnmə yolları maraqlıdır. Şair el ədəbiyyatının məlum havası üstündə köklənib öz uşaq nəğməsini ötür. Belə şeirlərdə ilk baxışda folklordan istifadənin izini belə tapmaq çətindir. “Xatirənin bəhanəsi” sujetli şeiri bu cəhətdən xarakterikdir. Balaca Xatirə kosmosa uçmaq istəyir. Ata adi qazanı təkərləyir, ona qanad taxır, pər qoyur, qurğunu işlədəcək hava borusu düzəldir. Qazan uğuldayıb kosmosa qalxmaq istəyəndə qız bəhanə gətirir: əvvəl kuklasız kosmosa uçmaq istəmir, o biri dəfə Oktaysız...anasız və s. Nəticədə qorxaq Xatirə kosmosa uça bilmir. Bu şeirin istər şəkli, istərsə də intonasiyası oxucuya şifahi xalq şeirini xatırladır:

Qızım, qızım, qız ana!
Qızım girdi qazana.
Qazanı təkərlədim,
Qanad taxdım, pərlədim.
Hava verdim pər üçün,
Yol açdım təkər üçün.
Uğuldadı qazança,
İstədi qazan uça.
Elə bu vaxt Xatirə
Qışqırdı birdən-birə:
Kuklalarım olmasa,
Mən uçmaram kosmosa...

**II Aparıcı:** Həyatda az-az sənətkar tapılar ki, doğulduğu, boya-başa çatdığı yerlərdən məhəbbətlə danışmasın, öz əsərlərində doğma yurdunu, onun gözəlliyini, qənirsizliyini, bənzərsizliyini vəsf eləməsin. Əlbəttə, bu təbiidir. Amma M. Aslan qədər öz şeirlərində, doğulduğu yurda, o yerin gözəlliklərinə, bənzərsizliyinə, gülünə-çiçəyinə, çeşməsinə,

daşına, qayasına, zirvəsinə, baldırğanına, moruğuna adi bir otuna, vurğunluqla şeir yazan ikinci bir şair tanımırıq.

M. Aslanın poeziya yolu Kəlbəcərin Laçın kəndindən, o dağlar qoynundakı balaca kəndin dolam-dolaşıq enişli-yoxuşlu cığırlarından, allı-güllü yaylaqların tər çiçəkqoxulu, təbiətin bir şah əsəri olan bəzəkli, xalça toxulu çəmənlərindən, yol-yamacından, sərin meşələrindən, zümzüməli çeşmələrindən, anasının şirin bayatısından, atasının avazla şeir deməsindən, Tərtərin, Tutğunun həzin nəğmələrindən, körpəliyindən eşitdiyi, hardasa bir ozanın yanıqlı-yanıqlı saz çaldığı bir saz havasından, bir tütək səsindən başlayır. Elə bu baxımdan da şair ömrünün çoxunu təbiətin gözəlliyinə həsr edib.

Oxucular səhnəyə daxil olur. "Vətən ömrü" şeirini söyləyirlər.

Səninkidir, ömrüm, Vətən,
Kimin ömrü özünündür?!
Məndən xoş bir söz eşitsən,
Öz səsindir, öz ünündür.

Sənsiz dünya bir oyuncaq,
Günüm səndə doğar ancaq!
Ürəyimdə yanan ocaq
Ocağının közünündür!

Yarı sisdə, yarı çəndə,
Bal çeşməndən nur içəndə,
Ömrüm, günüm nur içində;
Bu nur sənin gözünündür!

**I Aparıcı:** Bizdən sonra nə qalır? –Gəlimli-gedimli dünya! Gələnlə doğulub, gedənlə ölməyən sirli-soraqlı bir dünya! Şair babamız Qazi Bürhanəddin demiş:

Gələn birdi, gedən birdi, qalan bir,

Gələn qalmaz, gedən gəlməz, əcəb sirr.
Bir əvvəl var, bir axır var, deyirlər,
Yalan sözdü: nə əvvəl var, nə axır!

Məmməd Aslanın folklora bağlılığı onun misralarına çeviklik, ötkəmlik vermiş, uşaq şeirlərinin dili üçün xarakterik incə yumor, dilavərlik gətirmişdir:

-Səftər, durma gecədi,
Başda papaq keçədi.
Səndən bir söz soruşum:
Göydə ulduz neçədi?
-Hər nə desən, qanaram,
İnanmasan, qınaram.
Sən göyə nərdivan qur,
Mən də çıxıb sanaram!

Məmməd Aslan, ümumiyyətlə, təbiət şairidir. O, meşə ilə də, dağ-daş ilə də, sehirli, pıçıltılı çeşmələrlə də yaxın dost kimi danışır. Təbiəti uşaqlara göstərə bilmək arzusu şairin qəlbində kövrək hisslərin baş qaldırmasına səbəb olur. Məmməd Aslan uşaqların nəzərini təbii gözəlliyə, onu əhatə edən mühitə cəlb etməklə ona təbiəti, vətən torpağını sevdirməyə çalışır:

Yenə bahar yetişdi,
Gül bağladı çəmənlər.
Yamacların üzünə
Tül bağladı çəmənlər.

Bəli, əziz oxucu! Məmməd Aslanın şeirlərinin dili poetikdir, ona görə də maraqla oxunur, yeniyetmələrin qəlbinə asanlıqla yol tapır.

Xalq yaradıcılığı, folklor üstə köklənmiş koloritli şairlərdən biri Məmməd Aslan 2015-ci ildə doğulub boya-başa çatdığı, onu şair olmağa məhkum edən Kəlbəcəri görmək arzusu ilə bu dünyadan köçdü. Heç şübhəsiz ki, onun həyatdan köçməsi,

həmin zənginliyi özü ilə aparması, bu rəngarəngliyin ədəbiyyatımızda azalması deməkdir.

Tədbir Adil Cəmilin Məmməd Aslana həsr etdiyi şeirlə başa çatır.

Bu şəhərdə bir az şəhər,
Bir az kənddi Məmməd Aslan.
Kəlbəcərdən söz düşəndə
Himə bənddi Məmməd Aslan.

Gözü qalır doğan Ayda,
Ötüb keçir gün də, ay da...
Vətən yoxdur, özü boyda
Bir qürbətdi Məmməd Aslan.

Söz ömrünü ömür seçdi,
Dedi: ömrüm onsuz heçdi.
Misra-misra aşıb keçdi
Neçə səddi Məmməd Aslan.

Üz-gözündən nur tölülür,
Avazından dürr tökülür.
Ömür boyu dərdə gülür

Gülən dərddi Məmməd Aslan.

Baxıb Murovun qaşına
Deyir: dolanım başına...
Kəlbəcərsiz yetmişinə
Gəlib yetdi Məmməd Aslan.

Dağların düzə verdiyi,
Tanrının sözə verdiyi,
Allahın bizə verdiyi
Əmanətdi Məmməd Aslan.

**S O N**

## Ədəbiyyat siyahısı


### Kitablar

Seçilmiş əsərləri : Poeziya. - Bakı : Avrasiya Press, 2006. - 320 s.
Səhəri kim açır : 1-ci nəşr. - Bakı : E.L. NPŞ MMC, 2014. - 368 s.

### Kitablarda

1979 – Beynəlxalq uşaq ili ; Alma ağacı : Yalqız qurbağa və b. şeirlər // Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. – Bakı : Pedaqoji Universitetin nəşri, 2012. – . – S.403-411.

Dilləndi gəldi ; Ərincək pişik ; Böyürtkən börü tikən və b. şeirlər // Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. - Bakı : ADPU, 2018. – C. 2 : Müasir uşaq poeziyası. - Bakı : [s. n.], 2018. – S. 236-243.

Vətən və biz ; Haydı, qoç Koroğlu! ; Sahibin hanı ; O sənin haqqın deyil : şeirlər // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 136-140.

### *Dövri mətbuatda*

Ağla, qərənfil, ağla : şeir // Kaspi. - 2018. - 20 yanvar. - № 12. - S. 13.

Ağla, qərənfil, ağla! : 20 Yanvar faciəsindən 26 il ötür // Respublika. - 2016. - 20 yanvar. - № 13. - S. 8.

Bu yolu seçdim ki ; Ovqat alatoranında ; Mən buyam və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 29 avqust. - № 48. - S. 4-5.

Əhli-iman örnəyi ; Köhnədir ; Təzə qalan köhnələr : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 28 fevral. - № 12/13. - S. 15.

Nənələr xalça toxuyur ; Ütü ; Şuxluca : şeirlər // Göyərçin. - 2016. - № 1. - S. 5.

Özüm baxdım: nəhs gəldi : şeir // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 1.

Turan mələyi : Məmməd Aslan "Turan mələyi"ni 2004-cü ilin sentyabrında - Turan Cavidin dünyasını dəyişdiyi günlərdə yazmışdı // Ədəbiyyat qəzeti. - 2016. - 10 sentyabr. - № 33. - S. 18.

***Haqqında***
***Kitablarda***

Əsgərli F. Məmməd Aslan (1939) // Azərbaycan uşaq ədəbiyyatı. – Bakı : Pedaqoji Universitetin nəşri, 2012. – S. 402.

Hacıyev A. Məmməd Aslan (1939) // Azərbaycan uşaq ədəbiyyatı tarixi. – Bakı : Təhsil, 2004. – S. 217-220.

Xəlil Z. Məmməd Aslan (1939) // Uşaq ədəbiyyatı. – Bakı : Pedaqoji Universitet, 2011. – S. 315-319.

Məmməd Aslan // Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. - Bakı : ADPU, 2018. – C. 2 : Müasir uşaq poeziyası. - Bakı : [s. n.], 2018. – S. 236

Mustafayeva X. Məmməd Aslan (1939) // Azərbaycan uşaq ədəbiyyatı. – Bakı : Elm, 2011. – S. 265. Hacıyev A. Namazov

Q. Məmməd Aslan (1939) // Azərbaycan uşaq ədəbiyyatı. – Bakı : Bakı Universiteti, 2007. – S. 354-358.

*Dövri mətbuatda*

**Dəlidağlı N.** Torpağa bir tabut söz basdırdılar : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 12 avqust. - № 29. - S. 29.

**Fərəcova Z.** Gözümə Kəlbəcər torpağı tökün : Məmməd Aslan haqqında // Yada düşdü. - 2015. - № 4. - S. 74-78.

**Həbiboğlu X .** Nərgiz içində : Məmməd Aslanın ölümünə : şeir // Azərbaycan. - 2017. - № 7/8. - S. 78-81.

**Məhərrəmova T.** Kəlbəcərin özü olan şair : Məmməd Aslan dünyadan Murovun zirvəsindən doğma yurda baxmaq həsrətiylə köçdü // Kaspi. - 2015. - 24-28 sentyabr. - № 155. - S. . 7.

**Məmməd Aslanın 1983-cü** ildə Kültür Bakanlığında söylədikləri : mətbatımızda ilk dəfə çap olunur // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 7.

**Məmmədzadə R.** Kəsilmiş bir qol kimi çiynimizdədir boşluğun... : Məmməd Aslanla vidalaşma // Ədəbiyyat qəzeti. - 2015. - 31 oktyabr. - № 56. - S. 16-17.

**Rüstəmxanlı S.** Sözünlə birgə özün də yaşayacaqsan : şair Məmməd Aslan haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 6.

**Savalan A.** Sözün özü : [şair Məmməd Aslanın "Sözün özü" adlı kitabı haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 30 dekabr. - № 52. - S. 28.

# Bilməcədi bildiyimiz bu dünya

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 43
Çapa imzalanmışdır: 10.11.2019
Tirajı:100
Pulsuz